## Kazus - 1

Ərizəçi Almaniya Hava Yollarında (bundan sonra: **AHY)** çalışıb. O, xristian dininə itaət etdiyindən dini inancı baxımından sadə xaç taxıb. Lakin, AHY-nin işçilərin vahid geyim forması barədə qaydaları olduğundan və işçilər tərəfindən dini simvollardan istifadə qaydalara zidd olduğundan AHY rəhbərliyi ərizəçidən xaçı çıxartmağı tələb edib. Bundan imtina edən ərizəçi inzibati tənbehə məruz qalıb.

Bir müddət sonra, AHY vahid geyim forması barədə Qaydalarda dəyişiklik edərək çox nəzərə çarpmayan simvollardan istifadəni işçilərə icazə verib.

Ərizəçi inzibati tənbehin qanunsuz olması və bunun Konvensiyanın 9-cu maddəsinə və həmin maddə ilə birgə götürülməklə 14-cü maddəyə zidd olması əsası ilə AİHM-ə müraciət edib.

**Sual:**

1. **Konvensiyanın 9-cu maddəsinin pozuntusu baş veribmi (əsaslandırın)?**
2. **Ərizəçiyə qarşı fərqli rəftara yol verilibmi?**

## Kazus - 2

Ərizəçi mömin xristiandır. O, 1971-ci ildə konfirmasiya olunduqdan sonra etiqadını nümayiş etdirmək üçün boyunbağının üzərinə xaç taxmışdır. Ərizəçi tibb bacısı ixtisası almış və 1989-cu ilin aprel ayından 2010-cu ilin iyuluna kimi dövlət xəstəxanasında çalışmışdır. Xəstəxanada geyim forması ilə bağlı qaydalar mövcud idi. Bu forma Səhiyyə Departamentinin təlimatı əsasında müəyyən edilirdi. Xəstəxananın geyim forması ilə bağlı qaydaların 5.3.6-cı bənddə qeyd olunurdu:

> “5.3.6 Xəstəxanada daxili infeksiya riskinin azaldılması üçün zinət əşyalarının geyinilməsi məhdudlaşdırılmalıdır (bax 5.1.11). Başqa sözlə:
>
> Əl gigiyenasına xələl gətirməyən bir sadə, üstü hamar üzük,
>
> Bir cüt sadə, adi sırğa.
>
> Pasientlərə baxan zaman xəsarət yetirmə riskinin aradan qaldırılması üçün boyunbağı taxmaq olmaz.
>
> Üzdə pirsinq vardırsa, ya çıxarılmalı, ya da üstü örtülməlidir”.

5.1.11-ci bənddə qeyd edilir:

> “Dini və ya mədəni səbəblərə görə xüsusi paltar növü geyinmək və ya zinət əşyası taxmaq istəyən istənilən əməkdaş bu məsələni tabe olduğu müdir qarşısında qaldırmalıdır. Sonuncu buna razılıq verməkdən əsassız olaraq imtina etməməlidir”.

Əmək Mübahisələri üzrə Tribunala belə bir sübut təqdim edilmişdir ki, sağlamlıq və təhlükəsizliklə bağlı səbəblərə görə başqa bir xristian tibb bacısından xaç və boyunbağını çıxarmaq xahiş edilmiş, iki sikh tibb bacısına isə qolbaq və ya kirpan taxa bilməyəcəkləri barədə xəbərdarlıq edilmiş və onlar bu təlimatlara əməl etmişlər. İki müsəlman həkimə toxunulmuş dəbilqəni xatırladan dar hicab geyməyə icazə verilmişdi.

20. 2007-ci ilin iyununda xəstəxanada yeni geyim forması qəbul edilmişdir. Bununla ilk dəfə olaraq tibbi bacıları üçün boğazı V formasında köynəklər də nəzərdə tutulurdu. 2009-cu ilin iyununda ərizəçininmüdiri “boyunbağısını” çıxarmağı xahiş etmişdir. Ərizəçi xaçın dini simvol olduğunu təkidlə bildirmiş və onun taxılmasına icazə verilməsini xahiş etmişdir. Onun xahişi rədd edilmiş və səbəb kimi o göstərilmişdir ki, boyunbağı və xaç yaşlı insana toxunduğu halda xəsarət yetirə bilər. Ərizəçi xaçı maqniti olan boyunbağının üzərinə taxmağı təklif etmişdir ki, bu da xaçın pasientə toxunacağı təqdirdə ondan ayıracaqdı. Lakin səhiyyə orqanları imtina edərək bildirmişlər ki, xaç sərbəst hərəkətdə ola biləcəksə, sağlamlıq və təhlükəsizliyə hədə ola bilər. Misal üçün, o, açıq yaralara toxuna bilər. Nəhayət, təklif olunmuşdur ki, xaç və boyunbağı şəxsiyyətini təsdiq edən nişanın qaytanına

bərkidilsin. Bütün əməkdaşlardan tələb olunurdu ki, şəxsiyyəti təsdiq edən nişanı cibə və ya qaytana bərkitsinlər. Lakin onlardan eyni zamanda tələb olunurdu ki, mühüm kliniki vəzifələrinin icrası zamanı nişanlarını və qaytanlarını çıxarsınlar. Buna görə də ərizəçi bu təklifi də rədd etmişdir. 2009-cu ilin noyabrında ərizəçi tibb bacısının fəaliyyəti ilə bağlı olmayan müvəqqəti işə keçirilmiş və bu iş 2010-cu ilin iyulunda ləğv olunmuşdur.

21. O, 2009-cu ilin noyabrında Əmək Mübahisələri üzrə Tribunala müraciət edərək dini mülahizələrə görə həm birbaşa, həm də dolayı ayrı-seçkiliyə məruz qalmasından şikayət etmişdir. Əmək Mübahisələri üzrə Tribunal 2010-cu il 21 may tarixli qərarında birbaşa ayrı-seçkiliyə yol verilmədiyini qət edərək bildirmişdir ki, xəstəxananın mövqeyi dini mülahizələrlə deyil, sağlamlıq və təhlükəsizliyə dair mülahizələrlə bağlı olmuşdur. Dolayı ayrı-seçkiliklə bağlı şikayətə gəlincə, məhkəmə qət etmişdir ki, ərizəçidən başqa “şəxslərin” xüsusilə əlverişsiz vəziyyətə salınmalarını təsdiq edən hər hansı sübut yoxdur. Bundan əlavə, xəstəxananın ərizəçinin xaçı açıq şəkildə taxmağa cavabı mütənasib olmuşdur.Ərizəçi hesab edirdi ki, müsəlmanlara nisbətən ona qarşı ayrıseçkilik var.

Ərizəçi qadağanın qanunsuz olması və bunun Konvensiyanın 9-cu maddəsinə və həmin maddə ilə birgə götürülməklə 14-cü maddəyə zidd olması əsası ilə AİHM-ə müraciət edib.

**Sual:**

1. **Konvensiyanın 9-cu maddəsinin pozuntusu baş veribmi (əsaslandırın)?**
2. **Ərizəçiyə qarşı fərqli rəftara yol verilibmi?**

*Hazırladı: Sadiq Bağırov*
*Tural Hacıbəyli*